# Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 215 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi və "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2009-cu il 23 fevral tarixli 66 nömrəli Fərmanının ləğv edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 215 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1501, № 11, maddə 2275; 2019, № 6, maddə 1049; 2020, № 2, maddə 96; 2022, № 8, maddə 871; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 dekabr tarixli 1910 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1-ci bənddən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın və həmin bənddə "siyasətin" sözü "dövlət siyasətinin" sözləri ilə əvəz edilsin;

1.2. 2.1-ci bəndin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Xidmətin fəaliyyətinin əsas məqsədi Azərbaycan Respublikasında cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısını almaq üçün qanunla müəyyənləşdirilmiş tələblərə riayət olunmasına nəzarət etmək, müvafiq sahədə vahid tənzimləməni həyata keçirmək, habelə öhdəlik daşıyan

şəxslərin, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslərin, nəzarət orqanlarının və digər dövlət orqanlarının (qurumlarının) fəaliyyətini əlaqələndirmək, şəffaflığı və səmərəliliyi təmin etməkdir.";

1.3. 2.2-ci bənd üzrə:

1.3.1. 2.2.1-ci yarımbənddə "vahid siyasətin" sözləri "dövlət siyasətinin" sözləri ilə əvəz edilsin;

1.3.2. 2.2.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.2.3. ölkə risk qiymətləndirilməsinin həyata keçirilməsi ilə bağlı tədbirlər görmək;";

1.3.3. 2.2.4-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.2.4. öhdəlik daşıyan şəxslərin, Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslərin, nəzarət orqanlarının və digər dövlət orqanlarının (qurumlarının) fəaliyyətini əlaqələndirmək, onlardan daxil olan məlumatları və sənədləri toplamaq və təhlil etmək;";

1.4. 3.1-ci bənd üzrə:

1.4.1. 3.1.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.1.1. Qanuna uyğun olaraq müvafiq sahədə monitorinqi həyata keçirmək, öhdəlik daşıyan şəxslər, Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslər, nəzarət orqanları və digər dövlət orqanları (qurumları) tərəfindən təqdim edilən, həmçinin informasiya resurslarından, açıq mənbələrdən və digər şəxslərdən əldə olunan məlumat və sənədləri toplamaq və şübhəli halların müəyyən edilməsi, o cümlədən risk qiymətləndirməsinin aparılması məqsədilə taktiki, strateji təhlil metodlarından istifadə etməklə təhlil etmək, şübhəli hallara dair əldə edilmiş məlumat və sənədlərin keyfiyyətini qiymətləndirmək, həmçinin təhlilin nəticələrinə əsasən tədbirlər görmək;";

1.4.2. 3.1.3-cü, 3.1.13-cü və 3.1.24-cü yarımbəndlərdən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın;

1.4.3. 3.1.5-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.1.5. öhdəlik daşıyan şəxslər, habelə auditor xidməti göstərən şəxslər tərəfindən Qanunda nəzərdə tutulmuş məlumat və sənədlərin Xidmətə təqdim edilməsi qaydasını müəyyən etmək;";

1.4.4. 3.1.6-cı yarımbənddə "sadələşdirilmiş eyniləşdirilmə və verifikasiya qaydasını" sözləri "müştəri uyğunluğu tədbirlərinə, o cümlədən sadələşdirilmiş və gücləndirilmiş müştəri uyğunluğu tədbirlərinə dair tələbləri" sözləri ilə əvəz edilsin;

1.4.5. 3.1.7 – 3.1.12-ci, 3.1.14-cü və 3.1.15-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"3.1.7. Qanuna uyğun olaraq maliyyə institutlarının Xidmətə məlumat və sənədlər təqdim etməli olduqları nağd şəkildə həyata keçirilən əməliyyatların və maliyyə vəsaitlərinin elektron köçürülməsi əməliyyatlarının məbləğinin minimum həddini müəyyən etmək;

3.1.8. yüksək riskli zonaların siyahısını Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi əsaslara uyğun olaraq Azərbaycan Respublikasının Xarici

İşlər Nazirliyi ilə razılaşdırmaqla müəyyənləşdirmək, bu siyahını, habelə FATF tərəfindən edilmiş çağırışları birbaşa və ya müvafiq nəzarət orqanları vasitəsilə öhdəlik daşıyan şəxslərə göndərmək, FATF tərəfindən edilmiş çağırışların mətnini rəsmi internet informasiya ehtiyatında dərc etmək;

3.1.9. aşkar edilmiş risklərə uyğun olaraq yüksək riskli zonalara münasibətdə tətbiq edilən konkret məhdudiyyətlərin və xüsusi tələblərin növünü və müddətini Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi siyahıya uyğun olaraq müəyyənləşdirmək və öhdəlik daşıyan şəxslərə birbaşa və ya müvafiq nəzarət orqanları vasitəsilə göndərmək;

3.1.10. öhdəlik daşıyan şəxslərin daxili nəzarət proqramının cavab verməli olduğu minimum tələbləri müəyyən etmək;

3.1.11. yeni texnologiyaların tətbiqi zamanı verifikasiya tədbirlərinin həyata keçirilməsi qaydasını müəyyən etmək;

3.1.12. öhdəlik daşıyan şəxslərin, habelə Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslərin geriyə məlumatlandırma prosedurunu müəyyən etmək;";

"3.1.14. aparılmış təhlil zamanı cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi və ya digər cinayətlərin əlamətlərini müəyyən etdikdə, bu barədə məlumat və sənədləri dərhal istintaq aidiyyəti üzrə cinayət təqibi orqanına təqdim etmək və görülmüş tədbirlər barədə məlumat almaq;

3.1.15. öhdəlik daşıyan şəxslər, habelə Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslər tərəfindən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və ya terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyin sistemli pozulması ilə bağlı hallar aşkar etdikdə, bu barədə məlumatı qanunvericiliklə müəyyən edilmiş məsuliyyət və digər tədbirlərin tətbiqi üçün aidiyyəti nəzarət orqanına təqdim etmək və görülmüş tədbirlər barədə həmin orqandan məlumat almaq;";

1.4.6. 3.1.16-cı yarımbəndin 2 – 4-cü abzaslarından "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın;

1.4.7. 3.1.16-1-ci yarımbənddə "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun" sözləri "Qanunun" sözü ilə, "siyasətin" sözü "dövlət siyasətinin" sözləri ilə əvəz edilsin və həmin yarımbənddən "pul vəsaitlərinin və ya digər" sözləri çıxarılsın;

1.4.8. 3.1.17-ci yarımbənddən "yoxlamaların aparılmasını təmin etmək və" sözləri çıxarılsın;

1.4.9. 3.1.19-cu və 3.1.21-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"3.1.19. "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə riayət edilməsinə həmin Qanunun 13.2-ci maddəsinə uyğun olaraq nəzarət etmək, həmin Qanundan irəli gələn tələblərin yerinə yetirilməsi ilə bağlı təlimatlar hazırlayıb öhdəlik daşıyan şəxsləri, Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxsləri, habelə digər fiziki şəxsləri və qurumları məlumatlandırmaq;";

“3.1.21. öhdəlik daşıyan şəxslərin, Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslərin, habelə xarici tərəfdaşların təqdim etdikləri məlumatlar üzrə onların geriyə məlumatlandırılmasını həyata keçirmək;”;

1.5. 3.2-ci bənd üzrə:

1.5.1. 3.2.3 – 3.2.5-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

“3.2.3. Qanunun 14.4-cü maddəsində nəzərdə tutulmuş qaydada öhdəlik daşıyan şəxslərə sorğu göndərməklə onlardan məlumatlar əldə etmək, əməliyyatların icrasını dayandırmaq, müvafiq sahədə icrası məcburi olan qərarlar qəbul etmək və göstərişlər vermək;

3.2.4. cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə əlaqədar daxil olan məlumat və sənədlərin (o cümlədən xarici ölkələrin müvafiq səlahiyyətli orqanlarının sorğularının) araşdırılması məqsədilə nəzarət orqanlarının və digər dövlət orqanlarının (qurumlarının) informasiya sistemlərindən (ehtiyatlarından) məlumatları Qanunun 14.5-ci maddəsinə müvafiq olaraq elektron qaydada almaq;

3.2.5. öz vəzifələrinin icrası ilə əlaqədar öhdəlik daşıyan şəxslərə, Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslərə, nəzarət orqanlarına və digər dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumat və sənədlər barədə sorğu vermək, eləcə də onlardan belə məlumat və sənədləri almaq;”;

1.5.2. aşağıdakı məzmunda 3.2.5-1-ci yarımbənd əlavə edilsin:

“3.2.5-1. qeyri-maliyyə institutları və peşə sahibləri, habelə Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslər tərəfindən Qanunun tələblərinə riayət edilməməsi ilə bağlı Qanunun 14.8-ci maddəsində nəzərdə tutulmuş qaydada tədbirlər görmək;”;

1.5.3. 3.2.6-cı yarımbənddə “20.1-ci maddəsində” sözləri “22.1-ci və 22.2-ci maddələrində” sözləri ilə, “məlumatlara dair xarici ölkələrin müvafiq səlahiyyətli orqanlarına” sözləri “məlumat və sənədlərə dair xarici tərəfdaşlarına” sözləri ilə, “məlumatları” sözü “məlumat və sənədləri” sözləri ilə əvəz edilsin;

1.5.4. 3.2.8-ci yarımbənddə “digər ölkələrin səlahiyyətli orqanları” sözləri “xarici tərəfdaşları” sözləri ilə, “xarici ölkələrin müvafiq orqanlarının” sözləri “onların xarici tərəfdaşlarının” sözləri ilə əvəz olunsun və həmin yarımbəndə “məlumat” sözündən sonra “və sənədlərin” sözləri əlavə edilsin;

1.5.5. 3.2.9-cu yarımbənddə “ölkələrin müvafiq səlahiyyətli orqanları” sözləri “tərəfdaşları” sözü ilə, “məlumatın” sözü “məlumat və sənədlərin” sözləri ilə, “səlahiyyətli orqanlardan” sözləri “xarici tərəfdaşlardan” sözləri ilə və “məlumatların” sözü “məlumat və sənədlərin” sözləri ilə əvəz edilsin;

1.5.6. 3.2.10-cu yarımbənddə “ölkələrin müvafiq səlahiyyətli orqanları” sözləri “tərəfdaşları” sözü ilə əvəz edilsin;

1.5.7. 3.2.18-ci yarımbənddə “monitorinq iştirakçılarının, monitorinqdə iştirak edən digər şəxslərin” sözləri “öhdəlik daşıyan şəxslərin, Qanunun 12-ci maddəsi ilə müəyyən edilmiş şəxslərin” sözləri ilə əvəz edilsin;

1.6. 4.5.9-cu yarımbənddən “Qanunun 17-1-ci maddəsinin tələblərini nəzərə almaqla” sözləri çıxarılsın.

2. "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 23 fevral tarixli 66 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 79; 2010, № 2, maddə 80, № 3, maddə 192, № 8, maddə 725; 2014, № 7, maddə 813, № 9, maddə 1027, № 10, maddə 1195; 2015, № 2, maddə 123; 2016, № 3, maddə 443, № 9, maddə 1480; 2018, № 5, maddə 913, № 7 (I kitab), maddə 1500, № 10, maddə 2005, № 11, maddə 2291; 2022, № 5, maddə 467, № 8, maddə 867) ləğv edilsin.

3. Bu Fərman 2023-cü il fevralın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 31 yanvar 2023-cü il
№ 2006